# *Kubanıçbek ÖMÜRALIYEV:* "Azərbaycanın TDT-yə sədrliyi dövründə təşkilatımızın daha da güclənəcəyinə inanıram"

**"Mərkəzi Asiya ilə Azərbaycanın münasibətləri olduqca güclü strateji səviyyədədir. Bir neçə gün əvvəl Daşkənddə keçirilən toplantıda Azərbaycanın Mərkəzi Asiya platformasına üzv qəbul edilməsi də bunun əsas göstəricisidir".**

Bu sözləri AZƏRTAC-a məxsusi müsahibəsində Türk Dövlətləri Təşkilatının (TDT) baş katibi Kubanıçbek Ömüralıyev deyib.

O qeyd edib ki, TDT 16 il əvvəl Azərbaycanda, yəni Naxçıvanda yaradılıb. Bu il isə Qəbələ sammitində Azərbaycan təşkilata sədrliyi öz üzərinə götürüb. "Əlbəttə ki, bu sədrlik dövründə təşkilatımızın daha da güclənəcəyinə inanıram. Çünki Azərbaycan Prezidenti İlham Əliyev öz çıxışlarında dəfələrlə türk dünyasının bir ailə olduğunu bildirib. Bu, Azər-




baycanın türk dünyasına nə qədər önəm verdiyini, onun üçün nə qədər əhəmiyyətli olduğunu göstərir. Hazırda biz xarici siyasət, iqtisadiyyat, kənd təsərrüfatı, idman, gənclər siyasəti, texnologiya, innovasiya, kosmik sahə və digər istiqamətlər də daxil olmaqla 45-dən çox sahədə əməkdaşlıq edirik. Bu səbəbdən, Azərbaycan sədrliyi dövründə təşkilatımızın daha da güclənəcəyinə inanıram",- deyə baş katib vurğulayıb.

Kubanıçbek Ömüralıyev TDT-də humanitar əməkdaşlığın əsas prioritetlərdən biri olduğunu deyib: "Ötən il Bişkek sammitində təşkilata üzv ölkələr arasında mülki müdafiə mexanizminin yaradılması barədə qərar qəbul edilib. Bu proses davam edir. "Qırmızı Şəbəkə" platforması da məhz Bişkek sammitində yaradılıb. Bu bir il ərzində onlar çox aktiv fəaliyyət göstəriblər, xüsusilə də zəlzələ, daşqın, quraqlıq və digər təbii fəlakətlər zamanı biri-birlərinə yardım ediblər. Bundan başqa, könüllülər üçün təlimlər və düşərgələr də təşkil olunub. Ümid edirəm ki, humanitar sahədəki əməkdaşlığımız yüksələn xətlə davam edəcək".

Azərbaycan. - 2025.- 20 noyabr (№246).- S.9.